# Ulyanovskda ümummilli lider Heydər Əliyevin xatirəsi ehtiramla yad edilib

***Mayın 10-da Ulyanovskda görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.***

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumatda bildirilir ki, Ulyanovsk Regional Azərbaycan Milli-Mədəni Muxtariyyətinin (URAMMM) təşkil etdiyi tədbir zamanı şəhərdəki Heydər Əliyev adına meydanda onun şərəfinə ucaldılmış abidə ziyarət olunub. Anım mərasimində soydaşlarımızla yanaşı Ulyanovsk bölgəsinin milli təşkilatlarının rəhbərləri – "Rus evi" ictimai təşkilatının rəhbəri Tamara Kulyabina, Tatar Milli-Mədəni Muxtariyyətinin sədri Ramis Safin, Çuvaş Milli-Mədəni Muxtariyyətinin sədri Oleq Mustayev, Mordoviya Milli-Mədəni Muxtariyyətinin sədri Vladimir Sofonov, özbək icmasının sədri Qayrat Raxmonov da iştirak ediblər. Xalqımızın ümummilli liderinin abidəsi önünə gül dəstələri düzülüb və onun əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə URAMMM sədri İslam Hüseynov və "Rus evi" ictimai təşkilatının rəhbəri Tamara Kulyabina çıxış ediblər. Natiqlər bildiriblər ki, 10 may – Azərbaycan xalqı və dünyada yaşayan soydaşlarımız üçün xüsusi tarixdir. Çünki müstəqil Azərbaycan dövlətini qardaş qırğınından xilas edən, ölkənin inkişaf yolunu müəyyənləşdirən liderin doğum günüdür.

Heydər Əliyev şəxsiyyətinin, onun zəngin irsinin təkcə Azərbaycan xalqına məxsus olmadığı, onun dünya miqyaslı dövlət xadimi olduğu bildirilib. SSRİ hökumətində işləyərkən Heydər Əliyevin Ulyanovsk şəhərinin taleyində böyük rol oynadığı, "Aleksandr Suvorov" teploxodunun dəhşətli qəzaya uğramasından sonra ulyanovskluların köməyinə gəldiyi, Volqa çayı üzərindən ikinci körpünün tikintisini dəstəklədiyi və bununla da şəhərin iqtisadiyyatının inkişafına böyük töhfə bəxş etdiyi ehtiramla xatırlanıb.

Qeyd edilib ki, hazırda bu müdrik dövlət xadiminin müəyyənləşdirdiyi siyasi kursu Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir.

İ. Hüseynov çıxışında bildirib: "Heydər Əliyevə biz çox borcluyuq. Doğma torpağımızda sülh, millətin birliyi, Qafqaz bölgəsində Azərbaycanın aparıcı mövqeyi, Rusiya ilə qardaşlıq münasibətləri – bütün bunlar onun xidməti və nailiyyətləridir. Biz xatırlayırıq və qürur duyuruq, xalqımızın ümummilli lideri Heydər Əliyevin bizə vəsiyyət etdiyi həmin ideal və dəyərlərə uyğun gəlməyə çalışırıq".

***Samirə ƏLİYEVA, "Xalq qəzeti"***



Xalq qəzeti 2020.- 13 may.- S.8.